*18 may Beynəlxalq Muzeylər Günüdür*

# Nəriman Nərimanovun xatirə muzeyində

Xalqının tarixini özündə əks etdirən muzeylər milli-mənəvi sərvətlərin qorunub saxlanmasında, onun tədqiqi və təbliğində müstəsna rol oynayır. Azərbaycanda muzey işi XIX əsrin əvvəllərindən etibarən tədricən inkişaf etmiş və nəticədə müxtəlif tipli muzeylərin geniş şəbəkəsi yaranmışdır.

1919-cu ildə əsası qoyulmuş "İstiqlal muzeyi", 1920-ci illərdə "Azərbaycan Dövlət Muzeyi" (sonralar "Azərbaycan Tarixi Muzeyi"), Gəncə, Naxçıvan, Şəki və Lənkəranda fəaliyyətə başlamış tarix diyarşünaslıq muzeyləri, 1940-1945-ci illərdə açılan "Xalq Təhsili muzeyi" və Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi mədəni irsimizin toplandığı və qorunduğu müqəddəs yerlər olmuşdur. 1970-ci illərin əvvəllərindən isə muzey işinə verilən diqqət və qayğı xüsusi qeyd olunmalıdır. Heydər Əliyevin Azərbaycan mədəniyyətində apardığı quruculuq işləri bu sahədə də öz əksini tapmışdır. Görkəmli şəxsiyyətlərimizin adının əbədiləşdirilməsi ilə bağlı xatirə, ev muzeylərinin yaradılması Heydər Əliyevin xalqımızın say-seçmə övladlarına verdiyi yüksək qiymətin nəticəsidir. Uzun illər adına "millətçi", "xalq düşməni" damğası vurulmuş bir insanın: Nəriman Nərimanovun adını xalqına qaytarmaq, xatirəsini əbədiləşdirmək böyük fədakarlıq tələb etdiyi bir məqamda məhz Heydər Əliyev bu çətin missiyanı öz üzərinə götürmüş və başladığı işləri çox layiqli şəkildə başa çatdırmışdır.

1970-ci ildə Nəriman Nərimanovun 100 illik yubileyi ilə əlaqədar həyata keçirilən tədbirlər planına onun bir zamanlar ailəsi ilə birlikdə yaşadığı mənzildə xatirə muzeyinin yaradılması da daxil idi. 1977-ci il noyabrın 6-da Bakıda, Kommunist küçəsi 35-də (indiki İstiqlaliyyət 35) yerləşən binanın 2-ci mərtəbəsində ümummilli lider Heydər Əliyevin iştirakı ilə muzeyin açılış mərasimi oldu və ilk tamaşaçı qismində rəy kitabına öz ürək sözlərini də o yazdı.

Artıq 38 ildir ki, bu muzey Azərbaycanın böyük mütəfəkkiri, yazıçı-dramaturqu, maarifçisi, alim-pedaqoqu, həkimi, publisist-filosofu, görkəmli ictimai-siyasi və dövlət xadimi Nəriman Nərimanovun şəxsiyyəti, zəngin irsi, geniş və çoxşaxəli fəaliyyəti, eləcə də Azərbaycanın həmin dövrdə mühüm tarixi hadisə və prosesləri ilə bağlı materialları toplayan, qoruyan, təbliğ edən və elmi cəhətdən öyrənilməsinə imkan yaradan mədəniyyət və elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərir.

Muzeyin elmi personalı öz vəzifə borclarını yerinə yetirərkən digər muzeylər, arxivlər, kitabxanalar, cəmiyyətlər, elmi-tədqiqat, təhsil, mədəniyyət, turizm müəssisələri və KİV ilə intensiv əlaqə saxlayır, muzeyin internet vasitəsilə təbliği işlərini müvəffəqiyyətlə davam etdirirlər.

Ekspozisiyada nümayiş etdirilən orijinal sənədlər, fotoşəkillər, xatirə və məişət əşyaları N.Nərimanovun həyat və fəaliyyətinin bütün mərhələlərini özündə əks etdirir. 5600-dən artıq eksponatı olan muzey kolleksiyasında qədim nəşrlər, XX əsrin əvvəllərindən bu günə kimi dərc olunan qəzet və jurnallar, kitablar da mühüm yer tutur. Ekskursiyalar 3 dildə — Azərbaycan, rus və ingilis dillərində aparılır.

2013-cü il 18 may — Beynəlxalq Muzeylər Günü isə muzeyin həyatında əlamətdar bir gün kimi yadda qalmışdır. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muzeydə aparılan bədii-tərtibat işlərinin başa çatdırılması nəticəsində yeni ekspozisiyanın açılışı ictimaiyyət tərəfindən böyük sevinclə qarşılanmışdır.

Böyük mütəfəkkirin həyat və yaradıcılığı ilə bağlı olan hər bir şey muzeyə gələnlərdə hədsiz maraq doğurur. Xüsusilə Nəriman Nərimanovun ASSR Xalq Komissarları Soveti sədrinin şəxsi katibi vərəqəsində əski əlifba ilə yazdığı şeir hamının diqqətini cəlb edir.

Hilal artıq oldu deyə,
Sevinmişdi düşmən yenə.
Hilal birkən iki oldu,
Salam bizdən ikinciyə.
Azərbaycan, Azərbaycan,
Alqışladıq səni candan.
Atamız bir, babamız bir,
Azərbaycan öz qardaşdır.
Zatən biriz, fəqət yarın,
Bütün, bütün birləşəriz.
Azərbaycan, Azərbaycan,
Bildik xəyal deyil Turan.

N.Nərimanovun miras qoyduğu zəngin irs Azərbaycan tarixinin ən ağır və ziddiyyətli dövrünü araşdırmağa, ona düzgün qiymət verməyə imkan yaradır. Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan dövlətçiliyini dağılmaqdan qurtaran Nərimanov bu dövlətçiliyi Azərbaycan Sovet Sosialist Respublikası formasında davam etdirmişdir. O, milli-mənəvi dəyərlərə üstünlük vermiş, ölkənin dini, dili, ərazi bütövlüyü, mədəni inkişafı uğrunda mübarizə aparmış, Qafqaz hakimiyyət orqanlarında və SSRİ MİK sədri işlədiyi vaxtlarda da Azərbaycanla bağlı milli siyasətdə yol verilən nöqsanlara qarşı çıxmış, böyük müqavimətlərlə qarşılaşsa da öz mövqeyindən dönməmişdir. Bütün bunların nəticəsi idi ki, uzun illər Nərimanova "millətçi" damğası vuraraq onu xalqının yaddaşından silməyə çalışmışlar.

50-ci illərin axırlarında Nərimanova bəraət verildikdən sonra dövri mətbuatda onun haqqında ara-sıra məqalələr dərc olunmağa başlayır. Mir Cəlal Paşayev, C.Xəndan, H.Şahgəldiyev və C. Quliyev tərəfindən onun fəaliyyəti araşdırılır və Nərimanov ictimaiyyətə ədib, partiya və sovet dövlət xadimi kimi təqdim edilir. 60-cı illərdən etibarən isə N.Nərimanovun həyatı, ədəbi yaradıcılığı, ictimai-siyasi fəaliyyəti, tibbə dair fikirləri, teatra, ana dilinə, maarifə və mədəniyyətə olan münasibəti haqqında zəngin materiallar əsasında işlənmiş elmi əhəmiyyətli xeyli əsər yazılır. Bu sahədə M.Qazıyev, V.Məmmədov, T.Əhmədov, M.Məmmədov, B.Qəhrəmanov, İ.Kərimov, H.Əhmədov, F.Köçərli və başqalarının əməyini xüsusi qeyd etmək lazımdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra sovet dövrü tarixi və şəxsiyyətlərinin, o cümlədən N.Nərimanovun milli təmayüllü xadim kimi Azərbaycan dövlətçiliyi qarşısında xidmətlərinin öyrənilməsi üçün obyektiv şərait yaranmış, F.Əhmədova, A.Hacıyeva, H.Həsənov, Ş.Qurbanov, R.Bayramova, Ə.Əhmədov, Ə.Teymuroğlu, R.Əlimirzəyeva, Q.Məmmədov tərəfindən aparılan tədqiqatlar və yazılan monoqrafiyalar ictimaiyyətdə böyük marağa səbəb olmuşdur. Bu kitablar mütəmadi olaraq muzeyin ekspozisiyasında nümayiş etdirilir.

N.Nərimanovun xatirə muzeyində müxtəlif səpkili tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. Nərimanovşünas alimlərlə görüşlərdə, təqdimat mərasimlərində ali məktəb tələbələrinin də iştirak etməsi onların tarixi şəxsiyyətlərimiz haqqında daha dəqiq və dolğun bilik almasına imkan yaradır.

Bu ilin əvvəlindən N.Nərimanovun 145 illik yubileyi ilə bağlı silsilə tədbirlərin keçirilməsinə başlanmışdır. Bunlardan biri bu ilin fevralında muzeydə "Borçalı" İctimai Cəmiyyəti ilə birgə, digəri isə aprelin 14-də N.Nərimanovun doğum günündə keçirilmişdir. Həyata keçirilən tədbirlər planında N.Nərimanovun dövlətçilik fəaliyyətinə (1920-1925-ci illər) həsr edilmiş biblioqrafik göstəricinin nəşr olunması da nəzərdə tutulmuşdur.

Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, nərimanovşünas Teymur Əhmədov zəhmətkeşliyi, Nərimanov şəxsiyyətinə sonsuz sevgisiylə həmişə diqqəti cəlb edib. Hazırda onun rəhbərliyi ilə muzeydə çapa hazırlanan mükəmməl biblioqrafiya da onun gərgin elmi axtarışlarının uğurlu nəticəsidir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu biblioqrafik göstəricinin hazırlanması prosesində muzeyimizin əməkdaşlarının da əməyi olmuşdur. Onlar Teymur müəllimin rəhbərliyi ilə lazımi işləri həyata keçirmişlər. Güman edirik ki, bu biblioqrafiya elmi ictimaiyyət üçün bir töhfə olacaqdır.

**Kamilə HÜSEYNOVA,**
**Nəriman Nərimanov xatirə muzeyinin direktoru.**